TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

TƏHSİL, MƏDƏNİYYƏT, SOSİAL VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSİYASI

11-Cİ İCLAS

Ankara, 14 may 2024-cü il

TÖVSİYƏ QƏRARI

TÜRKPA üzv dövlətləri arasında əmək miqrasiyası üçün şəraitin asanlaşdırılması (milli qanunvericiliklərin uyğunlaşdırılması)

İnsan hüquqlarının və mənafelərinin müdafiəsinə dair bütün ümumdünya konvensiyalarını ***nəzərə alaraq,***

Qeyd olunan sənədlərin əsas prinsiplərinə, standartlarına və məqsədlərinə, həmçinin tətbiq olunan ən yaxşı təcrübələrə ***əsaslanaraq,***

Əməkçi miqrantların və onların ailə üzvlərinin əməyinin əhəmiyyətini ***qəbul edərək***,

Qəbul edən ölkənin sosial-iqtisadi inkişafında miqrantların əməyini ***müsbət qiymətləndirərək,***

Miqrasiyanın ölkədə yoxsulluq problemlərinin həlli istiqamətində model və dövlətin iqtisadi inkişafının tərkib hissəsi ola bilməyəcəyini ***nəzərə alaraq***,

Beynəlxalq ictimaiyyətdə milyonlarla insanı və çoxlu sayda dövlətləri əhatə edən miqrasiya fenomeninin əhəmiyyətini və miqyasını ***dərk edərək***,

Əməkçi miqrantların hüquqlarının hər yerdə kifayət qədər tanınmadığını və bununla əlaqədar olaraq, müvafiq beynəlxalq müdafiənin tələb olunduğunu ***bilərək***,

Əməkçi miqrantların hüquqlarının müdafiəsi ilə bağlı regional və/və ya ikitərəfli əsasda müəyyən dövlətlərin səylərini və irəliləyişləri, habelə bu

sahələrdə ikitərəfli və çoxtərəfli sazişlərin əhəmiyyətini və faydalılığını ***qəbul edərək***,

Türk dövlətləri arasında əməkdaşlıq sahəsində irəliləyişləri ***nəzərə alaraq,***

TÜRKPA üzv dövlətlərinə tövsiyə edilir:

- əməkçi miqrantların və onların ailə üzvlərinin hüquq və mənafelərinin müdafiəsi ilə bağlı TÜRKPA üzv dövlətləri arasında əməkdaşlıq reallıqlarına uyğun universal hüquqi sənədin hazırlanması üzərində iş aparmaq;
- TÜRKPA üzv dövlətlərində işçi və işəgötürənlərin vahid məlumat bazasına malik birgə məşğulluq mərkəzinin yaradılması üzərində iş aparmaq;
- gələcəkdə dividendlər əldə etmək üçün miqrantlara vəsaitlərin ayrılması istiqamətində fəaliyyət göstərən kiçik və orta müəssisələr üçün proqramlar tərtib etmək və əlverişli şərait yaratmaq;
- əməkçi miqrantların və onların ailə üzvlərinin, xüsusən də mənfi miqrasiya təcrübəsi ilə üzləşmiş qadınların və uşaqların repatriasiyası və davamlı reinteqrasiyası məqsədilə proqramlar hazırlamaq və həyata keçirmək;
- əmək miqrasiyası proseslərinin tənzimlənməsi sahəsində yeni yanaşmaların öyrənilməsi, qanunvericiliyin tətbiqinə dair ölkələrarası təcrübə və məlumat mübadiləsi;
- mövcud ikitərəfli sazişlər əsasında əməkçi miqrantların sosial və təqaüd təminatına dair TÜRKPA üzv dövlətləri üçün universal çoxtərəfli sazişi işləyib hazırlamaq;
- əməkçi miqrantların təqaüd sığortasının həyata keçirilməsinə şərait yaradacaq standartlaşdırma ilə yanaşı, təhsil, elmi dərəcələr haqqında sənədlərin tanınması üzrə vahid qanunvericilik bazasını işləyib hazırlamaq;
- İKT sahələrində yüksək ixtisaslı kadrların gələcəkdə də işlə təmin olunması məqsədilə rəqəmsal köçərilər üçün İT viza sistemini təkmilləşdirmək;
- dotasiya, regional və sosial şəraitdən asılı olaraq əmək haqqına əlavələr, dotasiya və yeni iş yerləri açmaqla az inkişaf etmiş rayonlara dəstək kimi dövlətdaxili sosial təminatı həyata keçirilməklə işçi axınını azaltmaq;
- nümunəvi əcnəbi tələbələrin ölkənin təhsil və peşəkar tərkib hissəsinə töhfə verməsi məqsədilə gələcəkdə yaşamaq və təhsil almaq üçün onların ölkədə qalması təklifini irəli sürməklə, təhsil miqrasiyasını nəzərdən keçirmək;

- əməkçi miqrantların xaricdə hüquqlarını qorumaq, qəbul edən ölkələrin müvafiq nazirliklərinin nümayəndəliklərini açmaq, səfirliklər və diplomatik nümayəndəliklərə əməkçi miqrantlar üzrə xüsusi attaşelər təyin etmək;
- miqrasiya mənşəli ölkələrin vətəndaşlarının işə qəbulu üçün qəbul edən ölkələrdə xarici əmək miqrasiyası məsələləri üzrə agentliklərin açılması və xarici şirkətlərin akkreditasiyası üzrə siyasət həyata keçirmək.